# AZƏRBAYCAN RESPUBLİKASININ
# ENERGETİKA NAZİRLİYİ

## Ə M R

№ 57

Bakı şəhəri "4" iyun 2018 il

**Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2018-ci il 8 may tarixli 47 nömrəli əmri ilə təsdiq edilmiş "2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş tapşırıqlardan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planı"nın icrasının təmin edilməsi barədə**

2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən verilmiş tapşırıqlardan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2018-ci il 8 may tarixli 47 nömrəli əmri ilə təsdiq edilmiş "2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş tapşırıqlardan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planı"nın 5-ci və 6-cı hissələri üzrə Azərbaycan Respublikası Energetika Nazirliyi, Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi və Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və "Məişət Maye Qaz" Qapalı Səhmdar Cəmiyyətinin nümayəndələrindən ibarət aşağıdakı tərkibdə İşçi Qrupu yaradılsın:

**İşçi Qrupunun sədri:**

| | |
|---|---|
| Natiq Abbasov | Azərbaycan Respublikası energetika nazirinin müavini |

**İşçi Qrupunun üzvləri:**

| | |
|---|---|
| Elxan Həşimov - | Azərbaycan Respublikası Energetika Nazirliyinin Neft-qaz siyasəti şöbəsinin müdiri |
| Xalidə Məsimova - | Azərbaycan Respublikası Energetika Nazirliyinin Strateji proqramlar və islahatlar şöbəsinin müdiri |
| Ələsgər Həsənov - | Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji səmərəliliyi və ekologiya şöbəsinin müdir müavini |
| Pərvin Bayramova - | Azərbaycan Respublikası Energetika Nazirliyinin İqtisadiyyat şöbəsinin müdir müavini |
| Samir Axundov - | Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədri |
| Cəmil Məlikov - | Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədr müavini |
| Ruslan Əliyev - | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti "Azəriqaz" İstehsalat Birliyinin baş direktorunun satış və istismar üzrə müavini |
| Elşən Salmanov - | "Məişət Maye Qaz" Qapalı Səhmdar Cəmiyyətinin baş direktorunun birinci müavini |
| Hikmət Həsənov - | Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Strateji planlaşdırma və innovasiyalar şöbəsinin müdiri |
| Elxan İsmayılov - | Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji keyfiyyətinə nəzarət və tənzimləmə şöbəsinin Tənzimləmə sektorunun baş mütəxəssisi |

2. İşçi Qrupuna tapşırılsın:

2.1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2018-ci il 8 may tarixli 47 nömrəli əmri ilə təsdiq edilmiş "2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş tapşırıqlardan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planı"nın 5-ci hissəsində nəzərdə tutulmuş tədbirin icrası ilə bağlı görülən işlərə dair aylıq hesabatları hazırlayaraq hər növbəti ayın 15-dək Azərbaycan Respublikasının energetika nazirinə təqdim etsin.

2.2. "Tədbirlər Planı"nın 6-cı hissəsinin icrasının təmin edilməsi ilə bağlı konkret təkliflər və görülən işlər haqqında məlumat hazırlayaraq rübdə bir dəfə Azərbaycan Respublikasının energetika nazirinə təqdim etsin.

3. Ümumi şöbə (E. Rzayeva) bu əmrin surətini Nazirliyin şöbələrinə və aidiyyəti qurumlara çatdırılmasını təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** *Azərbaycan Respublikası Energetika Nazirliyinin 2018-ci il 8 may tarixli 47 nömrəli Əmri.*

**Nazir** **Pərviz Şahbazov**